# Biznes əməliyyatları hesabatı

## 2022-ci ilin 1-ci yarısının nəticələri

# Əsas göstəricilər (2022-ci ilin 2-ci rübünün sonu)

| | |
|---|---|
| **Hasilat** | |
| **AÇG** | |
| neft (min barel/gün) | 424 |
| neft (milyon ton) | 10 |
| **Şahdəniz** | |
| qaz (milyard kubmetr) | 13 |
| kondensat (milyon ton) | 2 |
| **Əməliyyat məsrəfləri** (milyon dollar) | |
| **AÇG** | 229 |
| **BTC** | 49 |
| **Şahdəniz** | 1260 |
| **CQBK** | 29 |
| **Əsaslı məsrəflər** (milyon dollar) | |
| **AÇG** | 791 |
| **BTC** | 9 |
| **Şahdəniz** | 186 |
| **CQBK** | 2 |

# 2022-ci ilin mühüm hadisələri – AÇG əməliyyatları

- Birinci yarımil ərzində AÇG-də **8 neft hasilat quyusu** tamamlanıb.
- İlk neft hasilatından bəri AÇG-dən ümumi hasilat **4,1 milyard bareldən çox olub**.



Qərbi Azəri platforması

# 2022-ci ilin mühüm hadisələri – Azəri Mərkəzi Şərqi (ACE) layihəsi

- Hazırda ACE layihəsinin icrası üzrə **işlər ən yüksək həddədir və ümumilikdə 75% tamamlanıb**. Bu işlərə 5000 nəfər insan cəlb olunub.
- **ACE platformasının sualtı qaz xətlərinin** yataqdaxili sualtı boru kəmərinə birləşməsi başa çatıb.
- **Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri** davam edib – qazma modullarının üst tikililər blokunun üzərinə qaldırılması və yerləşdirilməsi əməliyyatı uğurla icra olunub; qazma qurğularının üst tikililər göyərtəsində inteqrasiyası davam edir; üst tikililərin şimal və cənub kranları quraşdırılıb; üst modulları borularının yığılması və hidrosınağı davam edib.
- **Dayaq blokunun tikintisi işləri başa çatıb,** barja yükləmə və yolasalınma üzrə hazırlıq işləri davam edir.



Bibiheybətdə qazma qurğularının “qaldırma və sürüşdürmə” əməliyyatı

# 2022-ci ilin mühüm hadisələri – Şahdəniz əməliyyatları

- Şahdənizdən ilk hasilat başlandığı vaxtdan ümumilikdə təqribən **170 milyard kubmetr qaz** və **38 milyon ton kondensat** əldə edilib.
- Şahdəniz 2 layihəsi çərçivəsində **tikinti işləri qərb-cənub cinahından hasilatın başlanması qrafikinə uyğun irəliləyib** - əsas sualtı quraşdırma işləri başa çatıb; sualtı xətlərin birləşdirilməsi üçün dalğıc işləri tamamlanıb; qərb-cənub cinahı layihəsi üçün Şahdəniz Bravo platformasının üzərində aparılan tikinti işləri başa çatmaq üzrədir; ilkin istismar sınaqları və yoxlama işləri davam edir.


Şahdəniz Bravo platforması

# 2022-ci ilin mühüm hadisələri - Səngəçal terminalı

- 2022-ci ilin 1-ci yarısında Səngəçal terminalından təqribən **114 milyon barel neft** və **12,5 milyard kubmetr Şahdəniz qazı** göndərilib.
- Hazırda terminal gündəlik **1,2 milyon barel neft və kondensat** və **100 milyon kubmetr qaz** (o cümlədən 81 milyon kubmetr Şahdəniz qazı) ixrac etmə gücünə malikdir.


Səngəçal terminalı

# Geoloji kəşfiyyat üzrə mühüm hadisələr

- Şəfəq-Asiman dəniz blokunda **ilk kəşfiyyat quyusunun qazılması** 2021-ci ilin mart ayında tamamlanıb. Hazırda ilkin seysmik məlumatların emalı da daxil olmaqla qazma zamanı quyudan əldə edilmiş məlumatların təhlili aparılır.
- Abşeron yarımadasının dayazsulu hissəsinin (AYDH) Qarabatdağ sahəsində **üçüncü kəşfiyyat quyusu 25 may 2022-ci il tarixində təhlükəsiz şəkildə bağlanıb və daimi tərk edilib**. Quyuda iqtisadi cəhətdən səmərəli karbohidrogen ehtiyatları aşkarlanmayıb. Bu quyu AYDH layihəsinin kəşfiyyat qazma proqramı üçün planlaşdırılmış fəaliyyətlərin sonuncusu olduğundan "Satti" özüqalxan qazma qurğusu AYDH proqramında iştirakını bitirib.



Gilavar seysmik gəmisi

# 2022-ci ilin 1-ci yarısında

## bp-nin işçiləri

- Hazırda bp-də 2268 nəfər Azərbaycan vətəndaşı işləyir (müddətli müqavilə əsasında işləyənlər daxildir).
- Azərbaycanda ixtisaslı işçilərin 90%-i yerli kadrlardır.

**Azərbaycanda ixtisaslı daimi işçilər**






# 2022-ci ilin 1-ci yarısında yerli ehtiyatlardan istifadə

| Yerli podratçılar/təchizatçılar (Azərbaycan, Gürcüstan, Türkiyə regionu) | Sayı | Xərclənib (milyon dollar) | |
|---|---|---|---|
| • Kiçik və orta müəssisələr | 184 | 144,5 | Ümumi üçüncü tərəf xərclərinin 60%-i |
| • Dövlət şirkətləri | 22 | 18,2 | |
| • Yerli tərəfdaşı olan birgə müəssisələr | 14 | 323,9 | |
| • Xarici podratçıların ölkə daxilində məsrəfləri | 88 | 166,6 | |
| **Ölkə daxilində cəmi xərclər[1]** | **308** | **653,2** | |

1. Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.



# 2022-ci ilin 1-ci yarısında sosial təşəbbüslər

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, milyon dollar)

| | |
|---|---|
| bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 1,3 |
| bp 100% | 0,8 |
| **Cəmi** | **2,1** |


İcmalar üçün ali təhsil imkanlarının yaradılması


Milli idmanın inkişafına dəstək



Texnologiyalar sahəsində yeni nəsil mütəxəssislərin hazırlanması



Azərbaycanın zəngin mədəni irsinin təbliği